# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 316 Bakı şəhəri, 31 avqust 2020-ci il**

**"Vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 442 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 72-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1648-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" 2019-cu il 21 avqust tarixli 814 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respubli-kasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" 2019-cu il 25 dekabr tarixli 902 nömrəli və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1035 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 442 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1904; 2018, № 3, maddə 587, № 9, maddələr 1927, 1938; 2019, № 5, maddə 976) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissəsində "Vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası İqtisadiyyat Nazirli-yinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırıl-ması məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**2.** 3-cü hissədə "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş "Vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası" üzrə:

3.1. adında "Vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırılması məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

3.2. 1.1-ci bənddə "vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, həmçinin vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyalarından Azərbaycan Respublikası Vergilər Nazirliyinin (bundan sonra – Vergilər Nazirliyi)" sözləri "Azərbaycan Republikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – İqtisadiyyat Nazirliyi) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırılması məqsədilə vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyalarından və məhkəmənin qərarı ilə müsadirə edilmiş aksiz markası olmayan və ya saxta aksiz markaları ilə markalanmış malların satışından İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

3.3. 1.2-ci (hər iki halda), 1.5-ci, 1.6-cı bəndlərdə, 2.3-cü bəndin ikinci cümləsində, 2.4-cü bəndin birinci cümləsində, 2.5-ci, 2.7-ci bəndlərdə, 3.2.5-ci, 3.2.7-ci yarımbəndlərdə ismin müvafiq hallarında "Vergilər Nazirliyi" sözləri "ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.4. 2.1-ci bəndin birinci cümləsinə "vəsaitin" sözündən əvvəl "maliyyə sanksiyalarından" sözləri əlavə edilsin;

3.5. 3.1-ci bənddə "vergi orqanlarının işçilərinin" sözləri "İqtisadiyyat Nazirliyinin işçilərinin (bundan sonra – işçilər)" sözləri ilə əvəz edilsin;

3.6. 3.1.4-cü, 3.1.5-ci, 3.1.9-cu yarımbəndlərdə "vergi orqanlarının işçiləri" sözləri və 3.1.6-cı, 3.1.7-ci yarımbəndlərdə "vergi orqanı işçilərinə" sözləri ismin müvafiq hallarında "işçilər" sözü ilə əvəz edilsin;

3.7. 3.1.8-ci yarımbənddə "vergi orqanlarının xidmət heyətinə" sözləri "işçilərə" sözü ilə əvəz edilsin;

3.8. 3.2-ci bənddə "Vergi orqanlarının" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə, "vergi sahəsində elmi-texniki potensialın" sözləri "elmi-texniki potensialının" sözləri ilə əvəz edilsin və 3.2.3-cü yarımbənddən "vergi sahəsində" sözləri çıxarılsın;

3.9. 4.1-ci və 4.2-ci bəndlərdə "Vergi orqanlarının işçilərinin" sözləri "İşçilərin" sözü ilə əvəz edilsin;

3.10. 4.3-cü bənddə "vergilər naziri" sözləri "iqtisadiyyat naziri" sözləri ilə əvəz edilsin;

3.11. həmin Qaydaya əlavə üzrə:

3.11.1. yuxarı sağ küncündə "Vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırılması məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

3.11.2. "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə və "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 3 sentyabr.- S.2.